Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Uşaqların maraq dünyasında əlamətdar tarixi günlər

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən hazırlanmış və uşaqlar üçün maraq kəsb edən əlamətdar tarixi günlərə həsr olunmuş metodik vəsait

Bakı – 2016

**Redaktor və buraxılışa məsul:** **Şəhla Qəmbərova**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**Uşaqların maraq dünyasında əlamətdar tarixi günlər**: Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən hazırlanmış və uşaqlar üçün maraq kəsb edən əlamətdar tarixi günlərə həsr olunmuş metodik vəsait / tərt. ed. T.Hacıyeva; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, 2016. – 66 s.

# Tərtibçidən:

Müasir dünyada uşaqların maraq dünyasına aid olan bir çox əlamətdar tarixi günlər qeyd olunur. Belə günlərin qeyd olunmasını ölkəmizdə də ənənəyə çevirmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanası metodik vəsait hazırlamışdır. Bu vəsaitin hazırlanmasında əsas məqsədlərdən biri kitabxanalarda bu günlərlə bağlı keçiriləcək tədbirlər haqqında məlumat verməkdir.

Vəsaitdə aşağıdakı mövzular qeyd olunur: "Uşaq İxtirası Günü - 17 yanvar", "Beynəlxalq Kitab Bağışlama Günü - 14 fevral", "Beynəlxalq Kuklaçı Günü - 21 mart", "Beynəlxalq Uşaq Kitabı Günü - 2 aprel", "Beynəlxalq Rəqs Günü – 29 aprel", "Ümumdünya İnternet Günü – 4 aprel", "Ümumdünya Kitab və Müəllif Hüquqları Günü – 23 aprel", "Beynəlxalq Cizgi Filmləri Günü – 6 aprel", "Ümumdünya Yer Günü – 22 aprel", "Beynəlxalq Günəş Günü – 3 may", "Beynəlxalq Şokolad Günü – 11 iyul", "Beynəlxalq Dostluq Günü – 30 iyul", "Ümumdünya Nöqtə Günü – 9 sentyabr", "Ümumdünya Dəniz Günü – 30 sentyabr".

Bu metodik vəsaitdə hər bir əlamətdar günün yaranma tarixi haqqında məlumat verilir, həmin günlərlə əlaqədar keçiriləcək tədbirlərə dair nümunələr təqdim olunur. Vəsaitdən məktəblərdə, gimnaziya və liseylərdə, uşaq kitabxanalarında istifadə oluna bilər.

# Uşaq ixtirası günü

Təqvim üzrə qeyd olunacaq ilk gün "Uşaq İxtirası Günü"dür (Kid Inventors Day). Bu gün hər il yanvarın 17-də qeyd olunur.

Bizim  sivilizasiyamızın bütün tarixi boyu insan hər zaman nələrisə ixtira etmişdir. Lakin bəzi ixtiraçılar buna erkən yaşlardan başlamışlar. Həm də bu onlarda çox gözəl, çox parlaq alınıb. Məhz belə balaca ixtiraçıların şərəfinə də hər il yanvarın 17-də Beynəlxalq Uşaq İxtirası Günü qeyd olunur.

Biz adətən alimlərin ağlına heyran olmağa alışmışıq. Lakin bəzən uşaqlar da müdriklikləri ilə seçilir, nə isə ixtira edirlər. Gənc ixtiraçıların istedadına həsr olunmuş bu gün uşaqlara, onların fikirlərinə, yaradıcılığına daha çox diqqət ayırmağa çağırır, axı onların arasında nəhəng ixtiraçılar yetişə bilər.

Bu əlamətdar günün məhz 17 yanvarda qeyd olunması təsadüfi deyil. 17 yanvarda Bencamin Franklin anadan olmuşdur. O, tarixdə ən görkəmli amerikalılardan biridir. B.Franklin həm dövlət xadimi, həm də alim, ixtiraçı, jurnalist və diplomat olmuşdur. O hələ 12 yaşında olarkən üzgüçülükdə istifadə olunan qol üçün üzgəcləri ixtira etmişdir. Franklin böyüdükdən sonra da ixtiraçılıqla məşğul olmuş, yellənən kreslo, barıtın elektrik qığılcımı ilə partladıla biləcəyini və s. ixtira etmişdir.

İnsanların beyninə dahiyanə fikirlərin necə gəldiyini alimlər izah edə bilmirlər. Həmçinin böyüklərin ağlına gəlməyən fikirlərin necə olur ki, uşaqların ağlına gəldiyini

də izah etmək mümkün deyil. Alyaskanın bayrağı, çöp üzərində dondurma, su xizəkləri, Brayl şrifti... bütün bunları kim ixtira edib? Məhz uşaqlar! Hər il 500 mindən çox uşaq və yeniyetmə müxtəlif kompüter oyunları, robot və texnikalar yaradırlar. Hələ onların sayı gələcəkdə nə qədər olacaq, məlum deyil. Odur ki, 17 yanvar – Uşaq İxtirası Günü, gənc ixtiraçılar günü əsl qeyd olunmağa layiq bir gündür.

*Bu əlamətdar günlə bağlı kitabxanalarda bir sıra tədbirlər keçirilə bilər.*

Kitabxanada bu günlə bağlı kitab və şəkillərdən ibarət sərgi təşkil etmək olar. Sərgidə aşağıdakı başlıqlardan istifadə etmək məqsədəuyğundur: “İxtira etmək uşaqlara xas xüsusiyyətdir”, “Bu günün balaca ixtiraçıları – gələcəyin böyük dahiləri”, “Dünyanı dəyişdirən balaca ixtiraçılar” və s. Aşağıda sizi sərgi nümunələri ilə tanış edirik.





Alyaskanın bayrağı. 1926-cı ildə 13 yaşlı Amerikalı yeniyetmə Benni Benson tərəfindən yaradılmışdır.



15 yaşlı amerikalı Çester Qrinvud 1873-cü ildə soyuqdan qoruyan qulaqcıqlar ixtira etmişdir.



Versiyalardan birinə görə, ilk qarda yeriyən maşını 1922-ci ildə 15 yaşlı kanadalı Jozef-Arman Bombardye ixtira etmişdir.



Meyvəli buzu, taxta çöp üzərində dondurmanı ilk dəfə 11 yaşlı amerikalı Frenk Epperson icad etmişdir.



Gözdən əlillərin yazıb oxuması üçün Brayl əlifbasını 1824-cü ildə 15 yaşlı fransız Lui Brayl ixira etmişdir.



İlk dəfə plastilin, divar kağızları üçün yapışqan istehsal edən Kleo Makvikerin nəvəsinin sayəsində icad edilmişdir. Balaca qızcığaz babasına onunla oynamaq istədiyini dedikdə, K.Makviker ona lazımi qatqılar, rəng əlavə etmiş, zərərli maddələri isə xaric etmuişdir.



Amerika məktəblisi Cek Andraka 15 yaşında mədəaltı vəzin erkən mərhələdə xərçəng xəstəliyinin diaqnostikası üçün test-sistemin prototipini yaratmışdır. Bu test hazırda mövcud olanlardan 168 dəfə sürətli və öz analoqlarından 26 min dəfə ucuz, həm də 100 faiz dəqiqdir.



## Beynəlxalq Kitab Bağışlama Günü

Təqvimdə ikinci sırada duran əlamətdar gün – "Beynəlxalq Kitab Bağışlama Günüdür"(İnternational Book Giving Day). Bu gün hər il fevralın 14-də qeyd olunur. Təqvimdə ən gənc bayramlardan olan bu gün, uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət oyadan bütün insanları birləşdirir. Bu bayram 2012-ci ildə ABŞ-da məşhur Delightful Childrens Books uşaq kitabı saytının yaradıcısı

Emmi Brodmurun təşəbbüsü ilə yaradılmışdır. Bu ideyanı ona balaca oğlu vermişdir. O, anasından soruşmuşdur ki, niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün yoxdur. E.Brodmur öncə İnternetdə müxtəlif insanlara bu təşəbbüsdə iştirak etmələrini təklif etmişdir. Bu təşəbbüs az müddətdə bütün dünyada dəstək qazanmış, ona çoxlu insanlar qoşulmuşlar və bu indi də davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi böyük rol oynamışdır. Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola düşür və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək, bölüşmək sevinci yaradır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası bir uşaq kitabxanası olaraq uşaqlar və kitablarla bağlı günlərin qeyd olunmasına xüsusi önəm verir. Bu əlamətdar gündə isə həm kitablar, həm də uşaqlar iştirak etdiyi üçün, xüsusi əhəmiyyət daşıyır. Belə bir günün qeyd olunması üçün uşaq kitabları, kitabı, mütaliəni təbliğ edən vəsaitlərdən istifadə olunması ilə sərginin qurulması məqsədəuyğundur. Sərgini aşağıdakı başlıqlar altında qurmaq olar: "Ən gözəl hədiyyə kitabdır", "Kitab bağışlayaq, dost qazanaq", "Ən qiymətli sərvətimizi – kitablarımızı bir-birimizlə bölüşək", "Yaxşı kitab ömürlük dostdur" və s.

*Sərgdə kitabı, mütaliəni təbliğ edən aforizmlərdən istifadə etmək olar.*

Kitab – insanın özünün öz üzərində yüksəlməsinə imkan verir.

Andre Morua
Fransız yazıçısı

Kitab – bizi dolduran, lakin özü boşalmayan qabdır.

A.Dekursel
Fransız yazıçısı

Dünyada ən yaxşı kino zalı beyindir və sən bunu yaxşı kitab oxuyarkən anlayırsan.

Ridli Skott
İngilis rejissoru və ssenaristi

Kitab olmayan ev, ruhsuz bədən kimidir.

M.T.Siseron
Filosof

Yalnız heç nə oxumayan, heç nə haqqında düşünmür.

D.Didro
Fransız yazıçısı

Kitab oxumaqdan əl çəkmək, düşünməyi dayandırmaq deməkdir.

M.F.Dostoyevski
Rus yazıçısı

Kitabxanalarda bu günlə bağlı uşaqlar arasında viktorina keçirilməsi də yaxşı olar. Sorğu üçün aşağıdakı sualları təqdim edirik:

1. Müstəqil şəkildə oxuduğunuz ilk kitab hansı olub?
2. Ən çox sevdiyiniz kitabınızı dostunuza bağışlayardınızmı?
3. Hansı kitabların sizə hədiyyə olaraq verilməsini istəyərdiniz?
4. Şəxsi kitabxananızı qurarkən orada hansı mövzularda kitabların olmasını istəyərdiniz?
5. Kitab bağışlamaq imkanınız olsaydı, ilk öncə kimlərə kitab bağışlayardınız?

## Beynəlxalq Kuklaçı Günü

21 mart – Beynəlxalq Kuklaçılar Günü (İnternational Day of Puppetry) kimi qeyd olunur. Bütün dünyada Beynəlxalq Kuklaçı Gününün qeyd olunması ideyası məşhur İran kukla teatrı xadimi Civad Zülfaqarihoya məxsusdur. 2000-ci ildə Maqdeburqda, Beynəlxalq Kukla Teatrı Xadimləri İttifaqının XVIII Konqresində o, bu məsələni müzakirəyə çıxarmışdır. Lakin bu bayramın keçirilməsinin yeri və vaxtı haqqında müzakirələr getsə də, məsələ həll olunmamış qalmışdır. Yalnız iki ildən sonra, UNİMA-nın Beynəlxalq Şurasının iclasında bayramın tarixi müəyyən

olunmuşdur. Bütün dünyadan olan kuklaçıların bayramı ənənəsi 2000-ci ilin 21 martında yaranmışdır. Məhz həmin gündən başlayaraq kukla teatrının bütün peşəkarları və pərəstişkarları tərəfindən Beynəlxalq kuklaçı günü qeyd olunur. Ənənəyə görə, həmin gün kukla teatrı və yaradıcı qruplarının əməkdaşları qeyri-adi kukla tamaşaları, maraqlı görüşlər, konsertlər təşkil edirlər.

Ölkəmizdə də kuklaların, kukla tamaşalarının yaranmasının öz tarixi vardır. Kuklalar səhnədə görünəndə həmişə bayram olur. Kukla tamaşaları uşaqlara xeyirxahlığı, yaxşıları dəyərləndirməyi və sevməyi öyrədir. Əgər kuklalar balacalar üçün bir oyun, əyləncədirsə, böyüklər üçün bir eyham, bir mesajdır. Oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən tərbiyəvi və çox təsirli vasitə kimi önəm daşıyar. Kukla oyunlarını üç tipə bölmək olar: kilimarası; kukla oyunu; kölgə oyunu. Kukla oyun-tamaşalarının eyni kökdən olan bir neçə forması var. Bunlardan ən geniş yayılanı "Bəbək", "Keçəl pəhləvan", "Maral oyunu", "Kilim arası" qədim kukla oyunlarındandır. İllər ötdükcə mədəniyyətin hər bir sahəsi kimi kukla teatrı da inkişaf edir. Hələ ta qədimdən xalqımız təbii vasitələrdən istifadə etməklə kuklalar düzəltmiş, xalq oyunları keçirmişlər. Min illər boyu azərbaycanlıların yaşadıqları böyük və möhtəşəm ərazidə kukla oyunları da geniş yayılıb. El arasında kukla oyunlarına bəbək, oyuq və ipdə oyuq oyunları da deyilib. Bu oyunlar üçün kukla düzəldənlər oyuqçular adlanıblar.

Azərbaycanda körpə balaların kuklalarla görüş ünvanı Abdulla Şaiq adına Kukla Teatrıdır. Kukla Teatrının səhnəsində həm milli, həm də dünya xalqlarının nağıl

qəhrəmanlarının iştirakı ilə tamaşalar oynanılır: “Cırtdan”, “Turpun nağılı”, “Qoçaq Əhməd”, “Qırmızı Papaq”, “Cik-Cik xanım”, “Ələddin”, “Quşcuğaz”, “Göyçək Fatma”, “Məlikməmməd” və başqa tamaşalar teatrın səhnəsində oynanılır.

Beynəlxalq Kuklaçılar Gününün uşaq kitabxanalarında qeyd olunması məqsədəuyğundur, çünki bu bayram məhz uşaqlarla bağlıdır. Bu günlə əlaqədar sərgi təşkil edilməlidir. Sərgi aşağıdakı başlıq altında təşkil edilə bilər: “Ay uzunsaç, qaragöz, ağıllı kuklam mənim...”

Sərgidə milli və başqa kuklaları, əgər mümkün olmasa, onların şəkillərini nümayiş etdirmək olar:

















Azərbaycan Dövlət Kukla Teatrı






Kukla və kuklaçılar haqqında deyimlərdən də istifadə etmək olar. Bir neçə belə nümunə təqdim edirik:

Kuklaçının səsi sadəcə insan səsi olmamalıdır, o, peyğəmbər səsi kimi dözməyə və qalib gəlməyə kömək etməlidir.

U.Folkner
Yazıçı

İnsan kukladan nə ilə fərqlənir? Oyun bitdikdən sonra onu da, eynən kukla kimi qutusuna qoyurlar.

Mina Fudzi
Aktrisa

Ölüm – qutudakı mum kukladır.

Rey Bredberi
Yazıçı

Tamaşa bitdikdən sonra kuklaçılar gedir, sınmış kuklaları isə tullayırlar.

D.Solo
yazıçı, siyasətçi

Beynəlxalq Kuklaçılar Günü münasibətilə kiçik yaşlı oxucular üçün səhnəcik təşkil etmək məqsədəuyğundur. Tədbirdə öncə sözləri Cahangir Məmmədovun, musiqisi Ağabacı Rzayevanın olan "Ay uzunsaç, qaragöz, ağıllı kuklam mənim" mahnısı uşaqların ifasında səsləndirilir.

Ay uzunsaç, qaragöz,
Ağıllı kuklam mənim!
Gəl "Əlifba" oxuyaq,
Sən şagird ol, mən müəllim.

Bir de görüm "A",
Ay gözəl kukla!
Yoxsa səninlə
Danışmaram ha...

Atam almış mənimçin,
Rəngli qələm və dəftər.
Kitabımda var budur
Gözəl-gözəl şəkillər.

Ağzını aç sən,
Söylə can vətən!...
Nə tənbəl qızsan,
Niyə dinmirsən?

Oxumağı, yazmağı,
Öyrənmişəm bacımdan.
Dərsə gedəndə mən "beş"
Alacağam hər zaman.

Asan bir hərfi
Sən bilmirsən ki;
İncimə, kukla,
Alırsan "iki"...

Daha sonra rus yazıçısı Aleksey Tolstoyun Karlo Kollodinin "Pinokionun macəraları. Taxta kuklanın tarixçəsi" adlı nağılı əsasında qələmə aldığı "Qızıl açar və ya Buratinonun macəraları" povest-nağılı balacaların ifasında səhnələşdirilir.

## Beynəlxalq Uşaq Kitabı günü

Hər il aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü (International Childrens Book Day) qeyd olunur. Uşaq ədəbiyyatı gününün məhz aprelin 2-də keçirilməsinin öz maraqlı tarixçəsi var. Belə ki, məşhur nağılçı Hans Xristian Andersen məhz bu gündə - 1809-cu il aprelin 2-də anadan olmuşdur. Beynəlxalq Uşaq Kitabı Gününün H.X.Andersenin doğum günündə qeyd olunması təklifini

alman yazıçısı Yella Lepman irəli sürmüşdür. 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən Danimarka yazıçısı, uşaqların sevimlisi H.X.Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir. Bu tarix cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etmək üçün təsis edilmişdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası da 2012-ci ildən Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Kitabxana hər il Milli Uşaq Kitabı Sərgisi təşkil etməklə Azərbaycanda çap olunan uşaq ədəbiyyatı nümunələri ilə oxucuları tanış edir.

Bu əlamətdar günlə bağlı uşaq kitabxanalarında tədbirlərin keçirilməsi çox vacibdir.

Hər şeydən əvvəl kitabxanada Beynəlxalq Uşaq Ədəbiyyatı Günü ilə əlaqədar sərgi təşkil olunmalıdır. Sərgi üçün başlıq nümunələrini təqdim edirik: “Uşaqlar üçün yazmaq, gələcəyin insanını tərbiyə etmək deməkdir”; “Kamil vətəndaş yetişdirməyin birinci şərti yaxşı uşaq ədəbiyyatının mütaliəsidir”; “Bir uşağa kitab almaq, zülmətdə bir şam yandırmaqdır. Bir uşağı oxutmaq, gələcəyə günəş yollamaqdır”; “Çörək bədəni, kitab ağılı qidalandırır”; “Kitab ən yaxşı dostdur”. Sərgidə görkəmli Azərbaycan, rus, dünya yazıçılarının uşaqlar üçün yazdıqları əsərlərini nümayiş etdirmək lazımdır. Bundan başqa, görkəmli şəxsiyyətlərin uşaq ədəbiyyatı, uşaq mütaliəsi haqqında söylədikləri sitatlardan, aforizmlərdən istifadə etmək lazımdır. Aşağıda belə nümunələr verilir:

Ən faydalı kitablar, düşünməyə məcbur edənlərdir.

T.Parker

Amerika yazıçısı

Hər şeyi oxumaq lazım deyil, yalnız ruhunda yaranmış suallara cavab verən kitabları oxumaq lazımdır.

L.N.Tolstoy

rus yazıçısı

Düşünmədən oxumaq həzm etmədən yeməyə bənzəyir.

E.Bork

yazıçı, filosof

Yaxşı yazan müəllifləri oxumaqla yaxşı danışmaq vərdişi qazanırsan.

Volter

fransız yazıçısı, şair, filosof

Uşaqlara nəsihət verməkdənsə, kitab oxuyun.

Q.Oster

rus yazıçısı

Kitab – ödəniş və minnətdarlıq gözləməyən müəllimdir. Onunla hər dəqiqə, sizə müdrikliyin kəşfini verəcəkdir.

Ə.Nəvai

özbək şairi

Sərgidə aşağıdakı kitabların nümayiş olunması məqsədəuyğundur:


TIQ-TIQ XANIM
Ressamlar: Lale Qasımova ve Parvin Hasanova


TÜLKÜ HƏCCƏ GEDİR
ALTUN kitab


Abdulla Şaiq
İKİ QƏHRƏMAN


ZAHİD XƏLİL
ORXAN VƏ DOSTLARI


XANIMANA
Əlibəyli
ƏSƏRLƏRİ 1


АГНИЯ БАРТО
ИГРУШКИ


ZAHİD XƏLİL
GÜNƏŞİ
QOPARTMAQ
İSTƏYƏN AYILAR


ASTRİD LİNDQREN
DAMDA YAŞAYAN
KARLSON


SEÇİLMİŞ NAĞILLAR TOPLUSU
KÜLLÜCƏNİN ƏHVALATI
və başqa nağıllar


ЦЕЛОВАТЬСЯ ЗАПРЕЩЕНО!
ДРАГУНСКАЯ
АСТ
АСТРЕЛЬ
КСЕНИЯ ДРАГУНСКАЯ


Астрид Линдгрен
Сказочные повести о добре и зле


ЛЮБИМОЕ ЧТЕНИЕ
С. МАРШАК
ДЕТИ НАШЕГО ДВОРА




Beynəlxalq Uşaq Kitabı Günü münasibəti ilə kitabxanalarda oxucular arasında sual-cavab gecəsi keçirmək məqsədəuyğundur. Bununla həm uşaqların milli və dünya uşaq yazıçılarını nə qədər yaxşı tanıdıqlarını aşkara çıxarmaq, həm də onları bu sahədə daha da maarifləndirmək olar. Sual-cavab gecəsində balaca oxuculara ünvanlandırılacaq sualları təqdim edirik:

**Kitabxanaçı:** Uşaqlar, Azərbaycan uşaq yazıçılarından kimləri tanıyırsınız?

**I Oxucu:** Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Soltan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Süleyman Sani Axundov, Abdulla Şaiq..

**II Oxucu:** Mikayıl Rzaquluzadə, Mir Mehdi Seyidzadə, Mir Cəlal Paşayev, Mirvarid Dilbazi, Qılman İlkin, Hikmət Ziya, Zahid Xəlil, Tofiq Mahmud, Məmməd Aslan, Rafiq Yusifoğlu, Zeynal Cabbarzadə, İlyas Tapdıq, Teymur Elçin, Xanımana Əlibəyli...

**Kitabxanaçı:** Başqa xalqların uşaq yazıçılarından kimlərin əsərlərini oxumusunuz?

**I Oxucu:** A.S.Puşkin, Ş.Perro, V.Qauf, H.X.Andersen, Qrimm qardaşları, D.Defo, A.Lindqren, L.Kerroll, K.S.Lyuis, N.Ostrovski, K.Çukovski, S.Marşak, A.Barto, V.Draqunski, A.Qaydar, N.Nosov və başqaları.

**Kitabxanaçı:** Uşaq ədəbiyyatını mütaliə edərkən, hansı janrlarda yazılmış əsərlərə üstünlük verirsiniz: nağıl, fantastika, şeir, yoxsa nəsr?

**I Oxucu:** Mən nağıl janrında olan əsərləri həvəslə oxuyuram. Məsələn: Şarl Perronun "Yatmış gözəl", "Küllücə", Qrimm qardaşlarının "Ağca", "Bremen musiqiçiləri", "Rapunzel", H.X.Andersenin "Çirkin ördək balası", "Düyməcik", "Qalay əsgərcik", "Qar kraliçası" və s. əsərlər.

**Kitabxanaçı:** Milli uşaq yazıçılarımızın hansı əsərlərini sevirsiniz?

**I Oxucu:** Cəlil Məmmədquluzadənin "İki alma", Tağı Şahbazi Simurğun "Qayçı" hekayələri, Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ı, Abbas Səhhətin "Vətən", "Quşlar" şeirləri, Abdulla Şaiqin "Nüşabə", "Sehrli üzük", "Zalım padşah və əkinçi", "Ovçu Məstan" poemaları, "Şələquyruq", "İgid uşaq", "Sümsü" və s. hekayələri...

**II Oxucu:** M.Seyidzadənin "Nərgiz", "Ayaz", "Ata məhəbbəti", "Cırtdan", S.Vurğunun "Ayın əfsanəsi", "Aslan qayası", M.Rzaquluzadənin "El gücü", "Dəli ozan", "Yaralı göyərçin" əsərləri, M.Dilbazinin "”Reyhan", "Xeyir və Şər" poemaları..

**I Oxucu:** Azərbaycan uşaq yazıçılarından Z.Cabbarzadənin, X.Əlibəylinin, T.Elçinin, Ə.Əhmədovanın, İ.Tapdığın, Z.Xəlilin, R.Yusifoğlunun əsərlərini də sevərək oxuyuruq.
**II Oxucu:** Müasir Azərbaycan uşaq yazıçılarından S.Nuruqızının, R.Yusifqızının, Q.İsabəylinin, Ə.Quluzadənin və s. əsərləri də çox xoşuma gəlir.

## Beynəlxalq Rəqs Günü

Təqvimdə nisbətən yeni bayramlardan biri də Beynəlxalq Rəqs Günüdür (International (World) Dance Day). 29 aprel – peşəkar və ya həvəskar rəqslə məşğul olan, rəqsi sevən hər kəsin bayramıdır. Beynəlxalq Rəqs Günü 1982-ci ildən bəri YUNESKO-nun qərarı ilə qeyd olunmağa başlanmışdır. Bu gün fransız baletmeysteri Jan Jorj Noverin doğum gününə təsadüf edir. J.J.Nover müasir baletin nəzəriyyəçisi hesab olunur. J.J.Noverin doğum gününün rəqs günü kimi qeyd olunması təklifini balet artisti, xoreoqraf və pedaqoq P.A.Qusev təklif etmişdir.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da Beynəlxalq Rəqs Günü təsis olunduğu tarixdən etibarən, ənənəvi olaraq qeyd olunur. Azərbaycanda rəqslərin tarixi olduqca zəngin və qədimdir. Hələ eramızdan 2-3 min il əvvəl, Azərbaycan ərazisində rəqslər insanların həyatında müəyyən yer tutmuşdu. Bu baxımdan, Qobustan qayaüstü rəsmləri arasında "Yallı" oynayan insanların təsviri xüsusi maraq doğurur. Folklor, qədim xalq oyunları, rəqs havaları milli incəsənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. "Tərəkəmə", "Naz eləmə", "Turacı", "Uzundərə", "Qoçəli", "Heyvagülü",

“Vağzalı” xalq rəqslərinə tamaşa etmək kifayətdir ki, xalqımızın zəngin musiqiyə, köklü adət-ənənəyə malik olduğunu duyasan.

Uşaqlarda estetik zövqün formalaşdırılması, onların arasında milli və dünya xalqlarının rəqslərini təbliğ etmək üçün Beynəlxalq Rəqs Günü ilə əlaqədar kitabxanalarda və təhsil müəssisələrində tədbirlərin keçirilməsi çox yaxşı olar. Uşaq kitabxanalarında bu günlə əlaqədar sərginin qurulması vacibdir. Sərgiyə aşağıdakı başlıqlardan birini seçmək olar: “Vals – bütün rəqslərin başlanğıcı və sonudur”, “Rəqs - özünü musiqidə ifadə etmək imkanıdır”, “Rəqs elə özünüifadə formasıdır ki, onu heç kim heç vaxt sizdən ala bilməz”, “Rəqs də həyat kimidir, lakin həyatdan fərqli olaraq, onu yenidən başlaya bilərsən”, “Rəqs - həyat kimidir, dursan, rəqs bitəcək, dayansan, həyat”.

**Fotosərgi:**









Beynəlxalq Rəqs Günü ilə bağlı kitabxanada uşaqların ifasında hazırlanmış milli rəqslərin nümayişi, hər bir rəqs haqqında onlara qısaca məlumatın verilməsi məqsədəuyğudur. Rəqsləri ifa edən uşaqların münsiflər heyəti tərəfindən qiymətləndirilməsi və qaliblərin simvolik olaraq mükafatlandırılması yaxşı olar.

## Ümumdünya İnternet Günü

Aprelin 4-ü bütün dünyada Beynəlxalq İnternet Günü kimi qeyd olunur. Bu bayramın dərin, eyni zamanda bir qədər mübahisəli tarixçəsi var. Belə ki, 4 aprel tarixində şagirdlərin və tələbələrin himayəçisi olan və tarixdə ilk "Etymologiae" ensiklopediyasının yaradıcısı Sevilyalı Müqəddəs İsidorun ölüm günüdür. Məlumat üçün qeyd edək ki, katolik kilsəsi 1998-ci ildə ümumdünya internet

şəbəkəsini insan bilikləri xəzinəsi adlandırıb. Uzun müddət namizədlər arasında seçim edən Vatikan 2000-ci ildə belə qərara gəlib ki, İnternetin ən yaxşı himayəçisi müqəddəs İsidor ola bilər. Öz qərarını şərh edən II İohann Pavel bildirib ki, insan biliklərinin xəzinəsi internetdir, buna görə də o, bu missiyanı müqəddəs İsidora həvalə edib. Qeyd edək ki, internet himayəçisi ilk dəfə olaraq çarpaz istinad sistemindən istifadə edib. Bu sistem qlobal şəbəkədə istifadə edilən hiper istinadları xatırladır.

Müasir dövrdə İnternetin insan həyatındakı rolunu nəzərə alaraq, bu günün informasiya texnologiyaları ilə bağlı məlumatların geniş təbliği üçün bir imkan kimi, kitabxanalarda və digər mədəni-maarif müəssisələrində geniş şəkildə qeyd olunması vacibdir.

Bunun üçün ilk öncə sərgilərin təşkil edilməsi lazımdır. Sərgi üçün başlıq nümunələri təqdim edirik: “İnternet - müasir həyatın ayrılmaz hissəsidir”, “İnternet - dünyanı birləşdirən şəbəkə”, “İnternetə çıxış imkanı – insanların təməl hüquqlarından biri hesab olunur” və s.



# Fotosərgi:


ПОЛТАВА


Azərb@ycan
3000 m
login
İnternet
35
il
1969-2004
www.mincom.gov.az

# Kitab sərgisi















İnternetlə bağlı sitat nümunələri təqdim edirik.

Deyirlər ki, İnternet məhdudlaşdırır. Lakin hər şey bizim orda nəyi axtarmaq istədiyimizdən asılıdır... Biz hər bir halda öz beynimizin annotasiya olunmuş versiyasının içində oluruq.

Uilyam Gibson
Amerika yazıçısı

Mən hiss edirəm ki, yeni texnologiyalarda qorxulu nəsə var. Bu, biz ünsiyyətdə olduğumuz zaman yox, tək qaldığımızda özünü göstərir. İnternetə qoşuluruq və artıq özümüz olmuruq... Bu, bizim mənəviyyatımızı dağıdır.

İkuo Kameyama
Tokio Xarici Dillər İnstitutunun rektoru

İnternet toxunduğu hər şeyi dəyişir. O isə hər şeyə toxunur.

Con Ellis
Sənətşünas

Sizin qalib və ya məğlub olmanız məhz informasiyanı necə toplamanızdan və istifadə etmənizdən asılıdır.

Bill Geyts
"Microsoft" şirkətinin qurucusu

Beynəlxalq İnternet Günü ilə əlaqədar oxucuları kitabxanadakı elektron resurslar, multimedia zalı, elektron kitabxanadan istifadə qaydaları ilə tanış etmək məqsədi ilə kitabxanaya dəvət etmək, onlarla əyani söhbət aparmaq olar.

## Ümumdünya Kitab və Müəllif Hüquqları Günü

1995-ci il aprelin 23-də Parisdə YUNESKO-nun baş konfransı keçirilib. Həmin konfransda Ümumdünya Kitab və Müəlliflik hüququ günü, həmçinin Uşaq və yeniyetmə ədəbiyyatında dözümlülük ideallarının təbliğinə görə YUNESKO mükafatı təsis edildi. Bu əlamətdar günün məhz aprelin 23-də qeyd olunmasının qərara alınması heç də təsadüfi deyil. Belə ki, 1616-cı ilin bu günü Migel Servantes, Uilyam Şekspir, İnka Qorsilaso de la Veqa kimi görkəmli ədiblər həyatdan köçmüşlər. Həmçinin 23 aprel Moris Dryumon, Xaldour Laksness, C.Pla və Manuel Mexia Valyoxo kimi şəxsiyyətlərin doğum və ya ölüm günüdür. Tamamilə təbiidir ki, YUNESKO bu günü kitablara və müəlliflərə dəyər vermək, insanları, xüsusən gəncləri mütaliədən zövq almaq və bəşəriyyətin sosial və mədəni tərəqqisinə öz əvəzedilməz töhfələrini vermiş insanların əməyinə hörmət etməyə çağırmaq məqsədi ilə təsis etmişdir. Həmin gün qəbul olunmuş qətnamədə bu günlə əlaqədar kitab sərgilərinin və yarmarkalarının keçirilməsi tövsiyə olunur. Hər il bu günlə bağlı tədbirlərin sayı, çeşidi və bununla əlaqədar təşəbbüslərin sayı artır. Bunların arasında ən populyar olanları – kitab yarmarkaları və sərgiləri, dünya klassiklərinin əsərlərinin ictimai oxusu və müxtəlif mədəni-əyləncəli tədbirlərdir. Bu bayramla əlaqədar daha bir ənənə də mövcuddur. 2001-ci ildən başlayaraq hər ilin bu günü dünya kitab paytaxtı adını alan şəhər seçilir (1 il müddətinə). Münsiflər Komitəsinə YUNESKO-nun və 3 beynəlxalq peşəkar kitab nəşri təşkilatı – Beynəlxalq Naşirlər İttifaqı, Kitabxana Assosiasiyaları və Təşkilatlarının Beynəlxalq

Federasiyası (İFLA) və Beynəlxalq Kitab Ticarətçiləri Federasiyasının nümayəndələri daxildir. Bu ad, şəhərlərin kitab nəşri işinə və mütaliənin inkişafına, həmçinin kitab nəşri işində əsas tərəfdarların əlaqələndirilməsinə yardım etmələrinin sübutudur. 23 aprel YUNESKO tərəfindən elan edilən və Azərbaycanda artıq 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür.

Azərbaycan müasir müəllif-hüquq sisteminə malikdir. "Ümumdünya Kitab və Müəllif Hüququ Günü"nə həsr olunmuş tədbirlərin keçirilməsinin məqsədi kitab və müəlliflik hüququnun mədəni irsimizdə əhəmiyyətini bir daha açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, yaradıcı şəxslərə öz hörmət və ehtiramımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasının vacib olduğunu bir daha təsdiqləməkdir.

Oxucuları kitab və müəlliflik məsələləri ilə yaxından tanış etmək üçün bu günü xüsusi qeyd etmək, təbliğat aparmaq vacibdir.

Təbii ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da bu gün xüsusi qeyd olunan bayramlardandır. Respublikamızdakı MKS-lərin uşaq şöbələrində, məktəb, gimnaziya, lisey və digər mədəni-maarif müəssisələrində bu günün qeyd olunması ilə bağlı bir sıra tədbirlərin nümunəsini təqdim edirik. İlk öncə sərgilərin təşkil olunması ən vacib tədbirdir. Sərgilər aşağıdakı başlıqlar altında qurula bilər: "Yaxşı kitab yaxşı ünsiyyət deməkdir", "Mütaliə sənəti – başqasının köməyi ilə

düşünmək sənətidir", "Kitab – insan ağlının ən böyük kəşfidir" və s.

Dahi şəxsiyyətlərin kitab haqqında dedikləri mənalı fikirlərdən. aforizmlərdən də istifadə etmək olar. Məsələn:

Kitab – bütün biliklərin alfa və omeqası, bütün elmlərin başlanğıcıdır.

S.Sveyq
Avstriya yazıçısı

Yaxşı kitabları birinci dəfə oxuyarkən, yeni dost qazandığımız zaman keçirdiyimiz hissləri keçiririk. Artıq oxunmuş kitabı ikinci dəfə oxumaq – köhnə dostu yenidən görmək kimidir.

Volter
Fransız şairi, filosof

Kitablar arasında, insanlar arasında olduğu kimi, yaxşı və pis mühitə düşə bilərsən.

K.Helvetsi
Fransız filosofu

Kitabı yaradan müəllif, onun taleyini yaradan isə cəmiyyətdir.

V.Hüqo
Fransız yazıçısı

Yaxşı kitabxana – nəhəng sərvətdir

V.Belinski
Ədəbi tənqidçi

Bu əlamətdar günlə bağlı təşkil olunan kitab sərgisini bir qədər qeyri-ənənəvi qurmaq olar. Bu gün məhz kitab, mütaliə ilə bağlı olduğu və mütaliənin əsas ünvanı da

kitabxana olduğu üçün məhz kitabxananın özünə həsr etmək olar. Belə ki, kitabxananın girişində sərgi təşkil etmək, bu sərgidə kitabxananın keçmişini, fəaliyyətini, bu gününü, kitabxanada görülən işləri əks etdirən və şəkillərlə bəzədilmiş bukletlər qoymaq məqsədəuyğundur. Daha sonra kitabxananın xidmət şöbəsinin işçilərinin şəkilləri və adları olan lövhə və onun yanında rəylərin yazılması üçün xüsusi dəftərçə və qələm qoyulur. Balaca oxucular və onların valideynləri, məktəblilər, yeniyetmələr öz rəylərini burada qeyd edirlər. Sonda rəylər ümumiləşdirilir və oxucuların ən çox sevdiyi kitabxanaçı seçilir. Daha sonra oxucuların sevimli kitabxanaçıları ilə görüşü təşkil olunur. Görüşdə kitabxanaçı oxucuları maraqlandıran suallara cavab verir və öz işi haqqında danışır.

## ÜMUMDÜNYA YER GÜNÜ

Beynəlxalq Yer Kürəsi Günü və ya "Ağac Günü"nün keçirilmə tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. Senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramın qeyd edilməsində məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olundu. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırdı. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətlə istiqamətləndi. Məhz XX əsrin 70-ci illərindən etibarən şirkətlər ətraf aləmin

mühafizəsinə nə qədər vəsait ayırmaları barədə rəsmi məlumat verməyə başladılar.

**Azərbaycanda Ümumdünya yer günü.** 2003-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan rayonlarını əhatə edən Ağ-Göl Milli Parkı yaradılmışdır.

Bu əlamətdar günün kitabxanalarda və təhsil müəssisələrində qeyd olunması çox əhəmiyyətlidir. Belə ki, yetişməkdə olan məktəbliləri ekologiya məsələləri haqqında maarifləndirmək, onlarda yaşadığımız planetə, anamız təbiətə məhəbbət hissi, onu qorumaq lazım olduğunu aşılamaq lazımdır.

Bu günlə bağlı ilk növbədə kitabxanalarda sərgilərin təşkil olunması məqsədəuyğundur. Sərgi aşağıdakı adlarla qurula bilər: “Yer kürəsi – bizim ümumi evimizdir”, “Yer kürəsini dövr etməyə vadar edən qüvvə - sevgidir”, “Səssiz kainatın ən qurtaracağında gözəl melodiyaların səsləndiyi planet var. Bu - bizim Yer planetidir”, “Yer kürəsi – bəşər övladının yeganə məskənidir”.

**Kitab sərgisi:**







UŞAQLAR ÜÇÜN
ENSİKLOPEDİYA
GEOLOGİYA


Моя первая энциклопедия
ГЕОГРАФИЯ
ДЛЯ ДЕТЕЙ


ДЕТСКАЯ ЭНЦИКЛОПЕДИЯ
«МАХАОН»
ГЕОГРАФИЧЕСКИЕ
ОТКРЫТИЯ


Аванта+

Beynəlxalq Yer Günü ilə bağlı kitabxanada “Yer – bizim ümumi evimizdir” adlı yuxarı sinif şagirdləri üçün ekoloji tərbiyə üzrə məşğələ keçirmək olar. Məşğələnin keçirilməsində əsas məqsəd ekoloji işarələrdən istifadə etməklə uşaqlarda təbiətdə davranış qaydaları haqqında bilikləri möhkəmləndirmək, meşənin heyvanların və bitkilərin birgə yaşadıqları ərazi olması, ətraf mühitə diqqət və qayğı ilə yanaşmağın vacibliyini çatdırmaqdır. Bu məşğələnin keçirilməsi üçün qlobus, ekoloji işarələr, meşə heyvanlarının (canavar, dovşan və s.) və onların ləpirlərinin şəkilləri lazım olacaq. Bu məşğələni təcrübəli kitabxanaçı aparmalıdır. Öncə qlobus haqqında məlumat verilir. Bu zaman Teymur Elçinin qlobus haqqında tapmacasını səsləndirmək olar.

Bir qarpızım var cığal,
Üstünə dünya sığar.

Daha sonra qlobus haqqında məlumat verilir. Qlobus Yerin modelidir. Məktəblilərə aşağıdakı sualları ünvanlamaq olar:

1) Qlobusda hansı rəngləri görürsünüz?
2) Qlobusun üzərində hansı rəng çoxluq təşkil edir?
3) Qlobus nəyi təsvir edir?
4) Qlobusdan necə istifadə etmək lazımdır? və s.

Daha sonra məktəblilərə Yer planetindəki su hövzələri haqqında suallar verilir: Yerdə neçə okean var?; dənizlərin suyu necədir?; çayların, göllərin, bulaqların suyu necədir?; dənizdə hansı canlılar yaşayır? və s.

*Göllə oyun*

Bir vaxtlar çox təmiz bir su hövzəsi var idi. Onun suyu o qədər təmiz idi ki, sudakı canlıları görmək olurdu. Günəşli havada isə buludların, ağacların şəkili suda əks olunurdu. Bir dəfə gölə istirahət edənlər gəldi. Onlar ağaclardan kəsərək tonqal qaladılar, yemək yedilər. Gedərkən isə, özlərindən sonra zibil, şüşə su qabları və konserv qutuları qoydular. Gölün qonaqları artmağa başladı və hamı özlərindən əvvəlkilər kimi davrandı. Vaxt keçdikcə su azalmağa, zibil isə çoxalmağa başladı. Artıq orada yaşayan canlılar görünmürdü. Göldəki canlılar belə bulanıq suda yaşamağa çətinlik çəkirdilər. Uşaqlar, kim onlara kömək edə bilər? Biz bu gölə necə kömək edə bilərik? Uşaqlar bu məsələ ilə bağlı öz təkliflərini irəli sürürlər.

Daha sonra müxtəlif vəhşi heyvanların və onların ləpirlərinin şəkilləri monitorda nümayiş etdirilir. Uşaqlara hansı ləpirin hansı heyvana aid olması soruşulur. Ekoloji işarələrlə bağlı da sorğu-sual keçirilir. Doğru cavab verən uşaqlara simvolik hədiyyələr təqdim olunur.

Kitabxanalarda "Təbiətin möcüzələri" adlı fotoşəkil müsabiqəsi keçirmək yaxşı olar. Fotomüsabiqənin keçirilməsində məqsəd yetişməkdə olan nəslin ekoloji maarifləndirilməsi, ekoloji mədəniyyətin artırılmasıdır. Oxucuların təbiət qoynuda çəkdikləri fotoları kitabxanada sərgilənir. Oxucular sərgiyə tamaşa edirlər və xoşlarına gələn fotoşəklin müəllifinin adını və soyadını yazaraq, xüsusi olaraq bunun üçün ayrılmış qutuya atırlar. Günün sonunda səslər sayılır, qalib müəyyən olunur. Qalibə həvəsləndirici mükafat təqdim edilməlidir.

Uşaqlarda bizi əhatə edən təbiətə, mühitə, yaşıllıqlara qayğı hissi aşılamaq üçün yaxınlıqda yerləşən parkı və ya oyun bağçasını təmizləmək üçün gün təşkil etmək olar. Bunun üçün istirahət günlərindən birində əvvəlcədən razılaşdırılmış vaxtda uşaqlar özləri ilə xüsusi sellofan torbalar, əlcəklər götürərək kitabxananın qarşısında toplaşırlar. Sonra təyin olunmuş parka və ya uşaqların oyun bağçasına gedərək oradakı zibilləri torbalara yığırlar, səliqə sahman yaradırlar.

## Beynəlxalq Dostluq Günü

Beynəlxalq Dostluq Günü (İnternational Day of Friendship) təqvimdəki ən gənc bayramlardandır. 24 aprel 2011-ci ildə BMT-nin qərarı təsis olunmuşdur. Bütün planetin marağında olan bu gün əsasən zorakılığa qarşı olmaqla mədəniyyətlərin dostluğunu nümayiş etdirir. BMT-nin Baş Məclisi Paraqvayın təşəbbüsü ilə iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etmişdir. Baş Məclis qurumun üzvü olan ölkələrə bu nəcib təşəbbüsü fəal təbliğ etməyi tövsiyə etmişdir. Baş Məclis bu münasibətlə yekdilliklə qəbul edilmiş qətnamədə bütün dünya insanlarının ən nəcib və misilsiz hisslərinin təzahürü olan dostluğun aktuallığını və böyük əhəmiyyətini vurğulamışdır. Xalqlar, ölkələr, mədəniyyətlər və ayrı-ayrı şəxslər arasında dostluğun sülhün təmin olunması uğrunda səylər göstərməyə ruhlandıra biləcəyini nəzərə alan Baş Məclis iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etməyi qərara almışdır. Baş Məclis qurumun üzvü olan bütün ölkələrə Beynəlxalq

Dostluq Gününü öz adət-ənənlələrinə uyğun, o cümlədən maarifləndirmə və ictimaiyyətin məlumatlılığını artırmaq üzrə tədbirlər vasitəsilə lazımi qaydada qeyd etməyi məsləhət görmüşdür.

Beynəlxalq Dostluq Günü münasibətilə bir sıra tədbirlər keçirilə bilər. İlk öncə kitab sərgisi təşkil etmək məqsədəuyğundur. Sərgi üçün başlıqlar təqdim edirik: "Dost ikinci mən deməkdir", "Dost dosta tən gərək, tən olmasa gen gərək", "Dost yaman gündə tanınar", "Dost mehriban ya bir olar, ya iki..."

Dostluq haqqında görkəmli insanların aforizmlərindən, sitatlarından istifadə etmək olar. Aşağıda nümunələr təqdim edirik:

Yalnız əsl dost öz dostunun qüsurlarına dözə bilər.

U.Şekspir
Yazıçı

Dost bəla anında tanınar.

Petroni
Yazıçı

Bir düşmən çoxdur, min dost isə azdır.

Rudəki
Şair

Hamı ilə dost olanı, mən dostum hesab etmirəm.

Molyer
Yazıçı, komedioqraf

Qızılı, od aşkar etdiyi kimi, dostu da zaman üzə çıxarır.

Menandr
Komedioqraf

İnsan özü özünə nə qədər dəyər verirsə, dostları da ona o qədər dəyər verir.

Siseron
Filosof, siyasətçi

Kitabxanalarda və təhsil müəssisələrində Beynəlxalq Dostluq Günü ilə bağlı bir sıra tədbirlər təşkil etmək olar. Belə tədbirlərin hazırlanmasında əsas məqsəd uşaqlara dostluğun dəyərini izah etmək, dostluqda etibarlı və möhkəm olmaq və s. kimi mənəvi keyfiyyətlərin tərbiyə olunmasıdır. Belə tədbirlər bir neçə mərhələdən ibarət ola bilər.

1. Aparıcı dostluq haqqında qısa çıxış etdikdən sonra ekranda “Dostluq, bu - .... “ sözləri qeyd olunur. Aparıcı tədbirdə iştirak edən hər bir uşaqdan cümləni tamamlamağı xahiş edir. Bu tədbir diskussiya, müzakirə formasında keçir. Hər bir iştirakçı dostluq haqqında fikrini ifadə etdikdən sonra öz fikrini əsaslandırmalıdır. Bu zaman uşaqlar diskussiya edə, bir birlərinin fikirlərinə öz münasibətlərini bildirə bilərlər.
2. Daha sonra ekranda “dost”, “yoldaş”, “rəfiqə”, “sirdaş” və s. sözlər yazılır və uşaqlardan bu sözlərin fərqini izah etmələri istənilir.

3. “Əsl dost hansı xüsusiyyətlərə malik olmalıdır” mövzusunda fikir mübadiləsi aparılması məqsədəuyğundur.
4. “Ən yaxın dostumun portreti” mövzusunda çıxışlar. Hər bir oxucu ən yaxın dostunun mənəvi portretini təsvir edir.
5. Aparıcı uşaqlara bu suallarla müraciət edir: Dostluğu hansı qaydalara görə qurursunuz?; Dostluqda ən bağışlanmaz hərəkət nəyi hesab edirsiniz? Dostluqlar hansı səbəblərdən pozula bilər? və s.

## GÜNƏŞ GÜNÜ

Günəş Yer kürəsinə ən yaxın ulduzdur. Günəş Yer kürəsi üçün nəhəng kosmik enerji mənbəyidir. O, heyvan və bitki aləmi üçün zəruri olan işığı və istiliyi verir, Yer atmosferinin mühüm xüsusiyyətlərini formalaşdırır.

Günəş, bütünlükdə planetimizin ekologiyasını müəyyənləşdirir. Günəş olmasaydı, həyat üçün zəruri olan hava olmazdı, hava – donmuş suların və solğun torpağın ətrafında duru azot okeanına çevrilərdi. Bizim üçün, Yer sakinləri üçün Günəşin mühüm xüsusiyyəti ondan ibarətdir ki, onun yaxınlığında bizim planetimiz, planetimizdə isə həyat yaranmışdır.

Günəş, külək, dəniz dalğaları və biokütlə bizi daim əhatə edən və istifadəsi asan olan energetik xammaldır. O, radioaktiv tullantıların yaranmasına gətirib çıxarmır və bərpaolunan enerjidir.

Beynəlxalq Günəş Enerjisi Cəmiyyətinin Avropa şöbəsi bərpa olunan enerji mənbələrinin istifadə olunması imkanlarına diqqəti cəlb etmək üçün 1994-cü gündən hər il mayın 3-də könüllü əsasda Günəş Gününü qeyd edir.

Bütün Avropa üzrə peşəkarlar və könüllülər, ictimai təşkilatlar və firmalar Günəş enerjisinin imkanlarını nümayiş etdirməklə bağlı müxtəlif tədbirlər keçirirlər.

Günəş Günü ilə bağlı kitabxanalarda və məktəblərdə bir sıra tədbirlər keçirilə bilər. Kitabxanalarda ilk öncə sərgilər təşkil olunmalıdır. Sərgi üçün başlıqlar təqdim edirik: "Ay ana, böyüyəndə, Günəş olaram mən də..."; "Günəş – təmənnasız və qarşılıqsız işığını, nurunu bizə bəxş edən ulduz", "Həyat üçün Günəşə borcluyuq", "Qoy başımız üstündə daim nur saçsın Günəş!", "Qoy həmişə günəş olsun!".

"Qoy həmişə günəş olsun" adlı sərgidə adında günəş sözü olan, astronomiya və folklordan, dünyada sülh haqqında kitablardan istifadə olunur. Sərgi bir neçə gün davam etməlidir. Sərgidə günəş haqqında sitatlardan da istifadə olunur. Sitat nümunələrini təqdim edirik:

Hər bir insanda günəş var. Sadəcə onun parlamasına imkan verilməlidir.

Sokrat
Filosof

Bilin ki, ən nəhəng brilyant - Günəşdir. Xoşbəxtlikdən o, hamı üçün parlayır.

Ç.Çaplin
Aktyor

Hələ heç kim günəşi başqası üçün də işıq saçdığına görə ittiham etməyib.

M.İ.Svetayeva

Şairə

Günəş haqlı, haqsız tanımır. Günəş kimisə qızındırmaq məqsədi ilə işıq saçmır. Özünü tapan insan günəşə bənzəyir.

Yapon atalar sözü

**Kitab sərgisi:**





Gümbəz

Gümüş

Günəş

Gündüz və gecə

128







Аванта+
Мир энциклопедий
ЭНЦИКЛОПЕДИЯ ЛЮБОЗНАТЕЛЬНЫХ
БОЛЬШАЯ КНИГА ЗНАНИЙ


СОЛНЦЕ
ОБРАЗОВАНИЕ СОЛНЕЧНОЙ СИСТЕМЫ
ЗЕМЛЯ КАК ПЛАНЕТА
18
Планета Земля
СОЛНЕЧНАЯ КОРОНА
Солнце
Земля
Луна
Тень Луны
Место на Земле, где видно полное солнечное затмение
ПОЧЕМУ БЫВАЮТ СОЛНЕЧНЫЕ ЗАТМЕНИЯ?


МАГНИТНЫЕ БУРИ
ПОЧЕМУ СОЛНЦЕ СВЕТИТ?
СОЛНЕЧНЫЕ ПЯТНА
АТМОСФЕРА СОЛНЦА
ЗНАЧЕНИЕ СОЛНЦА
ПОГАСНЕТ ЛИ СОЛНЦЕ?
Фотография солнечного пятна
Солнечные пятна
Фотосфера
Хромосфера
Протуберанцы
ЗЕМЛЯ КАК ПЛАНЕТА
19
Планета Земля

Günəş Günü ilə bağlı kitabxanada “Beynəlxalq Günəş Günü” adlı bayram keçirmək məqsədəuyğun olar. Belə bir günün keçiriləcəyi haqqında öncədən elan verilməlidir.

Uşaqlar zalda öz yerlərini tutduqdan sonra onlar arasında viktorina keçirilə bilər. Viktorinada uşaqlar, adında günəş olan kitabları sadalamalıdırlar. Daha sonra kitabxanaçı müxtəlif xalqların mifləri, nağılları, əfsanələri əsasında onların günəşlə bağlı təsəvvürləri haqqında uşaqlara məlumat verir. Bayramın davamında digər kitabxanaçı uşaqlarla günəş haqqında daha elmi söhbət aparır və günəş haqqında onlarda təsəvvür formalaşdırır. Aparıcı proqramı günəş geyimində apararsa, bayram daha maraqlı olar. Sonda uşaqlar onlara sorulan tapmacalara cavab verirlər və hər düzgün cavaba görə günəş geyimli aparıcı onların üzünə rənglə çil çəkir. Ən çox çil qazanan uşağa simvolik hədiyyə verilir. Bayram tədbirinin sonunda uşaqlar musiqisi Hökümə Nəcəfovanın, sözləri isə Xanımana Əlibəylinin olan “Ay ana, böyüyəndə, Günəş olaram mən də” adlı mahnısını birgə oxuyurlar.

# Ümumdünya Süd Günü

1 iyun bütün dünyada yalnız uşaqların beynəlxalq müdafiəsi günü kimi deyil, həm də Ümumdünya Süd Günü (World Milk Day) kimi qeyd olunur. Bu günün devizi - "Uşaqlar, süd için, sağlam olun!" ola bilər.

Bu gün, ilk dəfə 2001-ci ildə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının təklifi ilə qeyd olunmuşdur. Həmin gündən bu ənənə dünyanın bir çox ölkələrində geniş yayılmışdır. Bayramın məqsədi – insanlar arasında süd və süd məhsullarının faydalılığının təbliğ olunması, o cümlədən əhalini süd və süd istehsalı ilə bağlı məlumatlandırmaqdır.

Süd məhsullarının faydası çoxdan təsdiq olunmuş bir faktdır. Süd məhsulları mədə şirəsinin ifraz olunmasını stimullaşdırır, bağırsaqların fəaliyyətini və maddələr mübadiləsini yaxşılaşdırır, orqanizm tərəfindən çox tez və asan mənimsənilir. Bundan əlavə, insan orqanizminə düşdükdə, südturşulu bakteriyalar C, B1, B2, B12, D vitaminlərini, hətta təbii antibiotikləri istehsal edir ki, onlar xəstəlikləri törədən mikrobların inkişafını dayandırır və ya onları məhv edir. Süd məhsullarının tərkibində orqanizm üçün vacib olan çoxlu miqdarda kalsium və fosfor mikroelementləri var ki, bu da insanın dişləri və sümüklərinin tərkibinə daxildir. Süd və süd məhsullarının faydalarını sadalamaqla bitməz.

Balacaların, eləcə də böyüklərin çox sevdiyi müxtəlif sıyıqlar, kokteyllər, kəsmikdən hazırlanan şirniyyatlar, dondurmalar, ləzzətli pendirlər, yoqurtlar.... süd məhsulları bir çox qidaların və yeməklərin tərkibinə daxildir.

Bəs nə üçün süd günü məhz iyunun 1-də qeyd olunur? Çünki 1 iyun Beynəlxalq Süd Günü təsis olunana qədər artıq bir çox ölkələrdə bu bayramın qeyd olunması ənənəsi var idi. Təsadüf belə gətirmişdi ki, bir çox ölkələrdə süd günü ya iyunun 1-ə, ya da ona yaxın olan tarixlərə düşürdü. Buna görə də Beynəlxalq Süd Gününün iyunun 1-də qeyd olunması qərara alındı.

Artıq 2008-ci ildə dünyanın 40-dan artıq ölkəsində bu bayram qeyd olunurdu.

Ölkəmizdə də süd gününün qeyd olunması ənənəsi yeni başlayır. Bu günün təbliğ olunmasının böyük əhəmiyyəti var. Respublikamız süd və süd məhsullarının istehsalı ənənəsinə malikdir. Düzgün qidalanmaq, süd məhsullarından bol-bol istifadə etmək gələcək nəslin sağlam yetişməsində çox mühüm amildir.

Kitabxanalarda, təhsil müəssisələrində bu əlamətdar günün qeyd olunması çox yaxşı olardı. Süd və süd məhsulları, onların istehsalı, faydaları haqqında uşaqları məlumatlandırmaq üçün sərgi təşkil etmək olar. Sərgi başlıqları kimi aşağıdakıları seçmək olar: "Güclü, ağıllı, cəld olmaq– bütün bunları südə borcluyuq!", "Süd içək – tez böyüyək, süd  içək – sağlam olaq!", "Biz südü çox sevirik!" və s.

MKS-lərin uşaq şöbələrində, təhsil müəssisələrində süd günü ilə bağlı tədbirlər keçirmək olar. Belə bir orijinal oyun olan "Süd ölkəsi" adlı "Möcüzələr sahəsi" formatında olan oyun keçirmək olar. Oyunun məqsədi və vəzifələri:

- Vacib qida məhsulu olan süd haqqında məktəblilərin məlumatlarını artırmaq;
- Qidalanmağa şüurlu münasibətin formalaşdırılması;

- Öz sağlamlığının qorunmasına laqeyd yanaşmamaq hissinin tərbiyə edilməsi.

*Ssenarini sizlərə təqdim edirik:*

Lazım olan avadanlıq: hərflər olan dairə; tapşırıqların yazıldığı cədvəl; "Sənin qayğına özündən yaxşı heç kim gəlməyəcək!" yazılmış plakat, prizlər, maqnitofon və musiqili başlıqlar.

Hazırlıq işləri: Oyun üçün sualların və onları müşayiət edən musiqilərin seçilməsi, plakatın, təbil formasında hərflər olan dairənin, tapşırıqlar olan cədvəlin, priz və mükafatların hazırlanması.

## Oyunun gedişi

**Aparıcı:** Salam, uşaqlar! Bu gün bizim qeyri-adi tədbirimiz var. Tədbirimizin adı – "Süd ölkəsi"dir. Südü dünyadakı möcüzələrdən biri hesab etmək olar. Süd – körpələrin ilk qidasıdır!

İnsan həyatının ilk günlərində süd onun təbii qidasıdır. Körpə süd içərək normal şəkildə böyüyür və inkişaf edir. Bir çox mütəxəssislərin fikirlərinə görə, süd və süd məhsulları uşaqların və böyüklərin qida rasionuna daxil olmalıdır. Bu qiymətli məhsul 200-dən çox müxtəlif qiymətli komponentlərə malikdir: zülal, yağ, süd şəkəri, mineral duzlar, vitaminlər və s. Yarım litr süd böyük insanın gündəlik tələbatı olan zülalın 30%-ni, yağın 25%-ni, kalsium və fosforun 75%-ni, B və D vitaminlərinin 30%-ni, A, B, C vitaminlərinin 15%-ni ödəyir.

Beləliklə, görürsünüz ki, süd həqiqətən çox qiymətli məhsuldur.

Daha sonra aparıcı qonaqları təqdim edir və oyunun qaydalarını diqqətə çatdırır.

Oyunun mərhələləri: 3 tur, final, tamaşaçılarla oyun və superoyun. Hər bir turda üç oyunçu iştirak edir.
**“O” sektoru** – xallar yanır və oyun növbəti oyunçuya keçir.
**“Şans” sektoru** – istənilən hərfi açmağa icazə verilir.
**“Dosta zəng” sektoru** – tamaşaçılara müraciət etmək olar ( oyunçulara deyil).
**“Priz” sektoru** – prizdən imtina edib oyuna davam etmək və ya prizi götürüb tamaşaçıların yanına qayıtmaq olar.

### I – seçmə tur

**Aparıcı:** Oyunçuların ilk üçlüyünü seçmək üçün**,** mən südün faydalı xüsusiyyətləri haqqında tapmacalar deyəcəyəm. Məlumdur ki, qida kimi yalnız inək südündən istifadə edilmir. Digər heyvanların da südü tamdəyərli qidadır.

1. Saqqalı var, qoca deyil,
   Buynuzu var, öküz deyil,
   Sağılır, amma inək deyil,
   (Keçi)
2. Qozbel heyvanam,
   Uşaqların sevimlisiyəm
   (Dəvə)
3. Yayın cırhacırında da
   Kürkümü çıxarmıram
   (Qoyun)

*Oyunçuların ilk üçlüyünün təqdimatı.*

## I Tur

Tapşırıq: Bu içki qarışıq qıcqırmadan - süd turşusu və spirt – alınır və onu maya əsasında hazırlayırlar. Asan həzm olunur, ağırlıq hissi vermir, tez doydurur, sərinləşdirici, yüngül tonuslaşdırıcı və müalicəvi təsiri var. Xəstəlikdən sağalmaqda olan, qanazlığı, iştahsızlığı olanlar üçün xüsusilə faydalıdır. Yaşlı, artıq çəkili, şəkərli diabetdən, böyrək və ürək xəstəliklərindən əziyyət çəkənlərə məsləhət görülür. Bu içkinin adını deyin.

KEFİR

## II Seçmə tur

Aparıcı: İkinci oyunçu üçlüyünü seçirik. Tapmacaları tapın:

1. Turp kimi hər tərəfi sarıdır,
   Oyuqları nə qədər çox olsa,
   Bir o qədər faydalıdır
   (Pendir)

2. Süddən nə alınır,
   Azca düşün, taparsan
   (Yağ)

3. Aytənin əlində
   Stəkanda qış,
   Gülşənin əlində
   Çöp üzərində qış..
   (Dondurma)

Oyunçuların ikinci üçlüyünün təqdimatı.

## III Tur

Bu süd məhsulu demək olar ki, bütün müalicəvi menyularda vardır. Süd zülalının və südün dgər tərkib hissələrinin konsentratı hər yaşdan olan insanlara faydalıdır. Biz zülalın həyatımızda nə qədər vacib olduğunu bilirik: orqanizmin bütün hüceyrələri, fermentlər, immun cisimləri onlardan təşkil olunur. Vərəm, sümük sınıqlarında, raxitdə və digər xəstəliklərdə bu məhsul əvəzedilməzdir. Bu faydalı və dadlı məhsul ürək, böyrək xəstəliklərində də faydalıdır. Onun adını deyin.

KƏSMİK

## III Seçmə tur

**Aparıcı:** Bizim orqanizmimizə südün faydasını tapmacalar vasitəsilə tapın. Üçüncü oyunçü üçlüyünü seçək.

1. Onları nə əkmirlər, nə səpmirlər. Onlar özləri yetişir. (Saçlar).
2. İki göl ətrafında qamış bitir (Kirpiklər).
3. Biz yeyirik – onlar işləyir. Biz yemirik – onlar dincəlir. Biz onları təmizləmirik – onlar xəstələnir (Dişlər).

Üçüncü oyunçü üçlüyünün təqdimatı.

## III Tur

Tapşırıq: Bu məhsulda çoxlu yağ var, ona görə də onu iştahsız və həzmi pis olan, qanazlığından əziyyət çəkən xəstələrə məsləhət görürlər. Onda A və E vitaminləri, həmçinin B qrupundan bəzi vitaminlər var. Onun adını deyin.

XAMA

Tamaşaçılarla oyun: Bu, qatığın bir növüdür. Onun mayasının tərkibinə iki müxtəlif süd turşusu bakteriyaları daxildir: bolqar çöpü və termofik streptokkok. Bu məhsulun vətəni – Bolqarıstandır. Deyirlər ki, məhz bu məhsulu çox istifadə edən bolqarlar 100 yaşa kimi yaşayırlar. Bu məhsulun adını deyin.

YOQURT

Final.
Finalçıların təqdim olunması.
Tapşırıq: Çiy süd turşumasın deyə, biz onu qaynadırıq. Qaynatdığımız zaman isə bir çox faydalı maddələr dağılır və südün dadı dəyişilir. Çiy və qaynadılmış südün dadını müqayisə edin. Südün xarab olmasına səbəb olan mikrobların südə zərər vurmadan xaric edilməsi üçün böyük fransız alimi Lui Paster çox ağıllı bir üsul təklif etmişdir. Süd 20 saniyə ərzində 78 dərəcəyədək qızdırılır. Bu zaman 99,9% mikroblar məhv olur. Qalanları isə zərərsiz olur, südün faydalı xüsusiyyətləri isə qorunub saxlanılır. Südün

faydalı xüsusiyyətlərinin saxlanmasının bu üsulunun adını deyin.

PASTERİZASİYA

Superoyun:

Tapşırıq: İnək yağı təmiz yağ hesab olunur. Onda zülal yoxdur. Kərə yağı görmə üçün çox vacib olan A vitamini ilə zəngindir. Çörəyi yağla birləşdirməyi ilk dəfə polşalı alim düşünmüşdür. O yalnız astronom yox, həm də həkim olub. Bu alim xəstələrə üzərinə kərə yağı çəkilmiş çörək verməyi tövsiyə edib. Çünki, o vaxtlar Polşada yayılmış taun xəstəliyində yağ çəkilmiş çörəyi yaxşı dərman hesab edirdi. Doğrudur, bu üsul taundan xilas etmədi, lakin çörəklə kərə yağının uğurlu birləşməsi insanların çox xoşuna gəldi və bu gün də onlar yağ-çörək yeməkdə davam edir. Bu alimin adını deyin.

KOPERNİK

**Aparici:** Ümid edirəm ki, südün nə qədər möcüzəli nemət olduğunu anladınız. Onda orqanizmin inkişafı və sağlamlığı üçün vacib olan çoxlu vitaminlər, qiymətli mikroelementlər, zülal var. Onların bəziləri zərərli mikrobları saxlayır ki, bu da xəstəliklərin inkişafının qarşısını alır. Sağlam olmaq istəyirsinizsə, süd için! Süd və süd məhsulları çox faydalıdır. Onlar həm də çox ləzzətlidir.

## Beynəlxalq Şokolad Günü

Hər il iyulun 11-də dünyanın şokoladsevərləri Ümumdünya Şokolad Gününü qeyd edirlər (World Chocolate Day). Bu gün ilk dəfə 1995-ci ildə Fransada qeyd edilib. Tez bir zamanda məşhurluq qazanaraq, Almaniya, İtaliya, İsveçrə və digər Avropa ölkələrində, eləcə də Avropadan kənarda keçirilməyə başlanılıb. Şokoladın və şokolad ağacının vətəni Mərkəzi və Cənubi Amerikadır.

Belə hesab olunur ki, ilk dəfə şokoladı asteklər hazırlayıblar və "şokolad" astek sözü olub mənası "acı su" kimi tərcümə olunur. Onu "Tanrıların qidası" hesab edirmişlər. Avropada "qara qızıl" kimi tanınması isə ispanlara məxsusdur. Şokoladın tarixi 3000 il əvvəlki dövrə aid edilən nemətlər sırasına daxildir. Təxminən bizim eramızdan 1500 il əvvəl Meksika körfəzi sahillərində yerləşən Amerikada yeni sivilizasiya meydana gəldi. Onların mədəniyyətlərindən bizə çox az məqamlar məlumdur. Yalnız irəli sürülən fikirlərə əsasən, məhz "kakao" sözü ilk dəfə onlar tərəfindən dildə "kakava" kimi tələffüz edilərək, meydana gəlib.

Dünyada sevgi rəmzi kimi tanınan ilk şirniyyat şokoladdır. Şokoladın tərkibindəki fenamin maddəsi, insanda sevgi hissi yaradır. Şokolad A, B, C, D, E vitaminləri, kalium, kalsium və natriumla zəngindir. Gün ərzində iki şokolad yemək, arterial təzyiqin aşağı düşməsinə səbəb olur. Kakao və şokolad antiseptik xüsusiyyətlərə malik olub, dişləri də bir çox zərərlərdən qoruyur. Dünyada

ən çox şokolad yeyən ölkə sakinləri İsveçrədədir. Belə ki, hesablamalara əsasən hər sakinə il ərzində 10 kq şokolad düşür.

Şokoladın müxtəlif çeşidləri var: qara, ağ, südlü, müxtəlif əlavələrlə və s. O, həm də müxtəlif desertlərin, şirniyyatların əsas komponentlərindəndir. Bu qida məhsulu müasir insanın rasionuna möhkəm şəkildə daxil olmuşdur. Şokolad sualtında işləyənlərin, kosmonavtların, alpinistlərin qidasına mütləq daxil olunur.

Şübhəsiz ki, şokoladı ən çox sevənlər həm də uşaqlardır. Bu əlamətdar günlə bağlı kitabxanalarda və təhsil müəssisələrində maraqlı tədbirlər təşkil etmək olar.

"Biz şokoladı sevirik" adlı bayram tədbiri təşkil olunur. Kitabxanaçı uşaqlara şokoladın mənşəyi, istehsalı, bu bayramın yaranması haqqında məlumat verir. Daha sonra şokolad haqqında maraqlı faktların yer aldığı slayd nümayiş olunur. Slaydda şokolad haqqında az bilinən faktlar rəngarəng şəkillərin müşayiəti ilə oxuculara təqdim olunur:

1. Şokolada qoyulmuş ilk heykəl 1 iyul 2009-cu ildə RF, Vladimir vilayətinin Pokrov şəhərində açılmışdır.



2. Şokolad haqqında ilk kitab1609-cu ildə Meksikada meydana gəlmişdir. O, “**Libro en el cual se trata del chokolate” – “**Şokolad haqında hər şeyin olduğu kitab” adlanırdı.

3. Coan Xerrisin "Şokolad" romanı əsasında rejissor Lasse Xalstrom eyniadlı film çəkmişdir. Filmdə baş rollarda Jülyet Binoş, Conni Depp və Cudi Denç oynamışlar.








4. Uşaqlar üçün məşhur ingilis yazıçısı Roald Dalın "Çarli və şokolad" fabriki adlı povesti çox maraqlıdır. Bu maraqlı povest yoxsul ailədən olan Çarli Baket adlı oğlanın hamı və özü üçün də təəccüblü şəkildə Villi Vonk adlı qeyri-adi xasiyyətli şokolad maqnatının varisi olmasından və onun macəralarından bəhs edir.
5. Hər il İtaliyanın Peruca şəhərində Şokolad festivalı keçirilir.
6. Almaniyanın Baden-Baden şəhərinin 45 km-liyində Şokolandiya adlı "ölkə" yaranıb. Parkda qurulan bu nağıl-şəhərdə hər gün əsl şokolad

şouları qurulur. Burada hər il 3 milyondan çox insan qonaq olur.

7. Şokoladdan moda nümayişlərində də istifadə olunur. Parisdə, Nyu-Yorkda dizaynerlər şokoladdan hazırlanmış əl işlərini nümayiş etdirmişlər.

## Beynəlxalq Nöqtə Günü

15 sentyabr Beynəlxalq Nöqtə Günü kimi qeyd olunur. Həmin gün hər bir insan, böyük də, uşaq da özünün istedadlı və bənzərsiz olduğuna inanmağa borcludur. Bu bayramın tarixi ingilis rəssamı Piter Q.Reynoldsun 2003-cü ildə yazdığı "Nöqtə" kitabı ilə bağlıdır. Bu kitabda şəkil çəkməyi bacarmayan balaca qız haqqında danışılır. Daha doğrusu, ona elə gəlir ki, şəkil çəkə bilmir. Rəsm dərsində Vaşti sadəcə nöqtələyirdi. Lakin Vaştinin müəllimesi ondan çəkdiyi nöqtənin altına imzasını qoymasını xahiş edir və həmin kağızı gözəl çərçivəyə salaraq divardan asır. "Mən daha yaxşı çəkə bilərəm" – deyə Vaşti qərara gəlir və məlum olur ki, bu döğrudan da belədir.

"Nöqtə" kitabı çoxlu mükafatlar alır, Çikaqo kitabxanasının versiyası üzrə ilin kitabı seçilir və bir çox dillərə tərcümə olunur. 2009-cu ildə müəllim Terri Şey ilk dəfə Nöqtə Gününü qeyd edir.  O gündən başlayaraq Beynəlxalq Nöqtə Günü hər il qeyd olunur.

Nöqtə qoymaq cümləyə, fikrə, hər hansı bir şeyə son vermək deməkdir. Bu bayramın məğzi ondan ibarətdir ki,

nöqtə bir çox işlərin, hadisələrin, sürprizlərin, kəşflərin başlanğıcı ola bilər. Balaca Vişnunun həyatındakı kimi...

Bu günün ən böyük əhəmiyyəti insanlarda, xüsusilə uşaqlarda öz bacarıqlarına, istedadlarına inam hissi yaratmaqdır. Hər kəsin məhz bu gündə kiçik bir nöqtədən, öz nöqtəsindən böyük işlərə başlaya biləcəyini simvolizə edir.

Kitabxanalarda Beynəlxalq Nöqtə günü ilə bağlı rəsm müsabiqəsi keçirilə bilər. Bunun üçün uşaqlara onların hər birinin öz nöqtələrini çəkmələri tapşırılır. Bu nöqtələr adi nöqtələr olmur. Balacalar onları öz fantaziyalarına uyğun şəkildə bəzəyə, bu nöqtələri istədikləri şəkildə çəkə bilərlər.

Müxtəlif nöqtə şəkillərinin sərgisi:



Kitabxanalarda uşaqlarla durğu işarələri haqqında sual-cavab gecəsi keçirmək olar. Öncə kitabxanaçı durğu

işarələri, onların rolu və əhəmiyyəti haqqında uşaqlara qısaca məlumat verir. Daha sonra müxtəlif durğu işarələrinin şəklini göstərərək, onların nəyə yaradığını, hansı hallarda işləndiyini uşaqlardan soruşur.

## Beynəlxalq Dəniz Günü

Ümumdünya Dəniz Günü BMT-nin təşəbbüsü ilə qeyd olunur (sentyabr ayının axırıncı həftəsi). 1978-ci ildən Beynəlxalq Dəniz Təşkilatı (BDT) "Ümumdünya Dəniz Günü"nü qeyd edir. 1977-ci ilin noyabrında keçirilmiş Hökumətlərarası Dəniz Təşkilatı Assambleyasının 10-cu sessiyasında qərara alınmış Ümumdünya Dəniz Günü 1978-ci ildən qeyd olunur. 1980-ci ilə kimi bu gün 17 martda qeyd olunurdu.

Bu günün tarixi hər bir dövlət üçün həmin ölkənin Beynəlxalq Təşkilatdakı üzvləri tərəfindən təyin olunur. Azərbaycanda isə bu tarix 29 sentyabra təsadüf edir. Bu gün ictimaiyyətin diqqəti gəmiçiliyə və dənizlərin mühafizəsinə cəlb olunur. Bu bayramın keçirilməsinin məqsədi bütün dünyada ictimaiyyətin, hökumət və özəl strukturların diqqətini dənizlərin və onların bioresurslarının qorunmasına cəlb etməkdir. Ənənəvi olaraq, Dəniz Günü dənizlərin və okeanların insanlar üçün əhəmiyyətindən, sualtı dünya sərvətlərindən və həmçinin hər bir Yer planeti sakininin onun qorunması üçün nə edə biləcəyindən bəhs edən müsabiqə, festival formasında keçirilir. Adətən ictimai təşkilatlar bu bayramı dənizlərin qorunması, çimərliklərin təmizlənməsi üçün mitinqlərin və yürüşlərin keçirilməsi ilə qeyd edirlər.

Beynəlxalq Dəniz Günü ilə əlaqədar kitab sərgisi qurulmalıdır. Sərgini aşağıdakı başlıqlar altında qurmaq olar: “Mənə dəniz verin, o tənha qalıb”, “Dənizdə bir aləm olur, günəş qalxanda sulardan”, “Dəniz ləpəsiz olmaz”, “Mən bilmirəm hansı gündür dənizin ad günü, Odur ki, təbrikə gəlirəm, ömrün hər günü” və s.

**Kitab sərgisi:**












Dəniz günü ilə bağlı uşaqlar arasında viktorina keçirmək olar. Viktorina üçün əyləncəli sualları və onlara cavabları təqdim edirik:

1. Dənizlərin tufanı ( köpəkbalığı)
2. Dənizlərin otu ( yosunlar)
3. Müqəddəs dəniz (Baykal dənizi)
4. Adları rənglərdən ibarət olan dənizlər (Ağ, Qara, Sarı və Qırmızı dənizlər)
5. Daş adı ilə adlandırılan dəniz (Mərmərə dənizi)
6. Dünyadakı ən böyük dəniz (Filippin dənizi)
7. Dünyadakı ən kiçik dəniz (Azov dənizi)
8. Dünyadak ən duzlu dəniz ( Ölü dəniz (İsrail) Assal gölündən (Cibuti, Afrika) dünyadakı ən duzlu su hövzəsidir)

Dəniz günündə dənizə həsr olunmuş şeir müsabiqəsi keçirmək olar. Tədbiri aparıcı giriş sözü ilə açır və ölkəmizin sərvətlərindən biri olan Xəzər dənizi haqqında ümumi məlumat verir. Daha sonra ədəbiyytamızda? poeziyamızda dəniz mövzusuna, Xəzərə həsr olunmuş əsərlərdən, mahnılardan söhbət açır. Xalq şairi Rəsul Rzanın dənizə həsr olunmuş şeiri təqdim olunur:

Göydə bulud oynayanda,
Həm o yanda, həm bu yanda,
Dalğaların qaynayanda,
Mən sənə heyranam, dəniz!

Havanın sərxoşluğunda,
Aydınlığın xoşluğunda,
Gecələrin boşluğunda
Nə gözəlsən, sonam dəniz!

Duyğu coşub, ürək dolub,
Könül eşqinlə qovrulub.
Nə xoşdur bir fanar olub
Yollarında yanam, dəniz!

Mən çoxdan vurğunam sənə
Böyük arzum budur yenə:
Dönüm bir göy göyərçinə
Sahilinə qonam, dəniz!

Mən səndən olmaram bezar
Mənim böyük bir eşqim var.
Sənətkar duyduğun yazar
Anam dəniz! Anam dəniz!

Tədbirdə iştirak edən oxucular, məktəblilər də dəniz mövzusunda şeirlər səsləndirirlər.

**Beynəlxalq Cizgi Filmləri Günü**

Beynəlxalq Cizgi Filmləri Günü (İnternational Animation Day), 2002-ci ildə ilk cizgi filmləri texnologiyasının ictimaiyyətə təqdimatının 110 illiyi münasibətilə Beynəlxalq Animasiya Kinosu Assosiasiyasının (The İnternational Animated Film Association, ASİFA) Fransa şöbəsinin təşəbbüsü ilə təsis olunub və hər il oktyabrın 28-də qeyd olunur. Bu əlamətdar gündə - 28 oktyabr 1892-ci ildə Parisdə rəssam və ixtiraçı Emil Reyno tamaşaçıları yeni, o zamana qədər heç kimi görmədiyi tamaşaya – “optik teatra” dəvət edir. İstedadlı

ixtiraçı özünün hərəkət edən şəkilləri nümayiş etdirən praksinoskop aparatını ilk dəfə açıq şəkildə nümayiş etdirmişdir. Biz indi bu hadisəni müasir cizgi filmlərinin timsalı adlandırardıq və məhz bu tarix hal-hazırda animasiya kinosu dövrünün başlanğıcı hesab olunur. Bir çox ölkələrdə bayram tədbirləri təyin olunmuş vaxtdan bir neçə gün əvvəl başlayır. Beynəlxalq Cizgi Filmləri Günü öncəsi dünyanın hər yerindən animasiya kinosu peşəkarları və həvəskarları öz filmlərinin proqramlarını bir-birləri ilə bölüşür və bu hadisəni bütün il gözləyən tamaşaçılar üçün əsərlərinin ilk nümayişini təşkil edirlər. Hal-hazırda cizgi filmlərinin belə seansları artıq dünyanın 104 ölkəsində keçirilir.

Beynəlxalq Cizgi Filmləri Günü münasibətilə kitabxanada "Cizgi filmlərinin sehrli dünyası" adlı sərgi təşkil etmək olar. Sərgidə milli, sovet və Disney cizgi filmlərinin qəhrəmanlarının şəkilləri, disklər, cizgi filmləri haqqında kitab və broşuralar nümayiş olunur. Daha sonra milli cizgi filmlərinin nümayişini keçirmək məqsədəuyğundur. Bu təbdbir bir həftə müddətində davam edə bilər. Öncə kitabxanaçı cizgi filmlərinin, daha sonra isə milli cizgi filmlərimizin yaranma və inkişaf tarixi haqqında qısaca məlumat verir.

Uşaqlar arasında cizgi filmləri ilə bağlı viktorinalar, sual-cavablar keçirmək olar. Bu viktorinalarda onlara sevimli cizgi film qəhrəmanları, cizgi filmlərinin musiqiləri, cizgi filmləri kimi hazırlanmış nağıllar, bədii əsərlər və s. haqqında suallar verilir.

**İstifadə olunmuş ədəbiyyat:**

2016-cı il üçün əlamətdar və tarixi günlər təqvimi
İnternet səhifələrində : www. google.com